# “Türk xalqlarının mədəniyyəti və dini baxışları” mövzusunu keçərkən müqayisəli təhlil metodunun üsul və yolları

**Elmirə Natiq qızı Fəziyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** elmirafeziyevaa@gmail.com

**Rəyçilər:** dos. P.Ş. Səfərov,
p.ü.f.d., dos. D.M. Musayev

**Açar söz:** müqayisə, paralellər, idrak fəallığı, din, mədəniyyət
**Ключевое слово:** сравнение, параллели, познавательная активность, религия, культура
**Key word:** comparison, parallels, cognitive activity, religion, culture

Metod anlayışı fəaliyyət zamanı necə hərəkət etmək lazım olduğunu bildirən üsuldur və məqsədə hansı yollarla nail olmağı göstərir. Bu yollardan biri də müqayisəli təhlil metodudur. Tarixi faktların təhsilalanlar tərəfindən passiv əzbərlənməsini deyil, tarixi hadisələr arasında səbəb əlaqəsini tapmaq bacarığı öyrədilməlidir. Metodlardan istifadə edərkən əsas məqsədlərdən biri düzgün nəticəyə gəlməkdir. Müqayisə metodu vasitəsilə tələbələr bilikləri daha dərindən dərk edə bilərlər və dərs daha yaddaqalan formaya gəlir. Bu metodda oxşar və fərqli xüsusiyyətlər müqayisə olunur. Müqayisədə aşağıdakı şərtləri nəzərə aldıqda düzgün nəticə almaq mümkündür.

1. Müqayisə olunan anlayışlar bircins olmalıdır.
2. Müqayisə mühüm əlamətlər üzrə aparılmalıdır.

K.D. Uşinski müqayisəni təlimdə ən mühüm üsul hesab edərək yazırdı: “Biz dünyada hər şeyi müqayisə vasitəsilə öyrənirik, əgər bizə heç bir əşyaya oxşada bilmədiyimiz bir əşya rast gəlsəydi, onun barəsində bir söz belə deyə bilməzdik... Əgər hər hansı bir əşyanı aydın başa düşmək istəyirsinizsə, həmin əşyanı ona ən çox oxşayan əşyadan fərqləndirin və həmin əşyanı ondan ən çox uzaq olan əşyalarla oxşarlıq tapın. Yalnız o zaman əşyanın bütün mühüm əlamətlərini özünüz üçün aydınlaşdıra bilərsiniz, elə bu da əşyanın başa düşülməsi deməkdir (1, s. 162).

Müqayisə müəllimin rəhbərliyi ilə aparılmalıdır. Təhsilalanlar gündəlik həyatda qarşılaşdıqları hadisələri, özləri fərqində olmadan müqayisə və təhlil edirlər. Tarixi hadisələrin müqayisə edilməsi hadisələrin daha parlaq təsəvvürünü yaradır. Tələbələr vizual olaraq qavranılan maddi obyektləri, alətləri, silahları və s. müqayisə edir, sonra sadə-sosial hadisələrin müqayisəsinə keçirlər. Müqayisə üçün obyektlərin seçimi müqayisəli tədqiqatlarda nəzərdən keçirilir. Bəlkə də ən çətin və məsuliyyətli əməliyyat və mübahisələr tarixdə nəyi müqayisə etmək olar və nəyi müqayisə etmək olmaz problemidir. Müqayisə metodunda əsas məsələlər tarixi məlumatların natamam təbiətindən, sosial sistemlərin mürəkkəbliyindən və verilən sualların xarakterindən irəli gəlir. Tarixi hadisələr toplandıqca müqayisənin rolu da artır. Hər bir tələbədə müqayisənin üsulu müxtəlif olur. Ona görə ki, hər bir tələbənin təsəvvürü fərqli inkişaf etmiş olur. Hadisələrin müqayisəsində bəzilərinə tarixi hadisə vacib olduğu halda, digərlərinə görə həmin hadisə vacib olmaya da bilər. Xəzər, Avar, Göytürk xaqanlıqlarının din və mədəniyyət mövzusunda müqayisəli təhlilində bir qrup tələbəyə görə din, digər bir qrupa görə mədəniyyət vacib məqam ola bilər. Müqayisədə təhlil mütləq iştirak etməlidir. Müqayisə prosesində abst-

raksiya və ümumiləşdirmə meydana çıxır. Tarixi hadisələr tərkib hissələrinə ayrılır və oxşar hadisələr arasında əlaqələr müəyyən olunur. Müqayisə belə ola bilər: 1) Oxşarlığa görə; 2) Fərqə görə; 3) Bir və ya bir neçə əsas üzrə.

Müqayisə metodu kimi Venn diaqramından istifadə edilə bilər. Venn diaqramında oxşar və fərqli cəhətlər qeyd olunur. Ali məktəbdə müqayisə üçün belə bir məntiqi tapşırıq təklif edə bilərik: Mədəniyyət mövzusunda Xəzər, Avar, Göytürk xaqanlıqlarının müqayisəli təhlilində hansı suallar qoyula bilər:

1. İncəsənət abidələrində oxşar və fərqli cəhətlərini qeyd edin; 2. Dil və yazılarının oxşar, fərqli cəhətlərini qeyd edin; 3. Məişət əşyalarının oxşar, fərqli cəhətlərini qeyd edin.

Təsviri incəsənət əsərlərinin müqayisəsi üzərində tapşırıqların mürəkkəbləşməsinə misal gətirək.

1) Eyni bir dövrə aid olan bir xalqın iki və yaxud bir neçə incəsənət abidəsinin oxşar xüsusiyyətlərini müqayisə yolu ilə təyin etməli.

2) Müxtəlif xalqların incəsənət abidələrinin oxşar və fərqli cəhətlərini təyin etməli.

3) Müxtəlif dövrlərin incəsənətinin tipik abidələrinin ümumiliyinin xassələrini müəyyən etməli.

4) Müxtəlif dövrlərin incəsənətinin tipik abidələrinin fərqlilik xassələrini müəyyən etməli (1, s. 167).

Hər üç xaqanlığın fərqli cəhətləri: Xəzər xaqanlığın evlərinin quruluşu ən varlı tayfa başçıları əsasən qışlaqlarını ağ daşdan tikilmiş divarlarla əhatə edirdilər. Avarların evləri yarımdairəvi şəkildə, yarıya qədər torpağa girmiş şəkildə tikilirdi. Evlərdə divar sobaları tikilirdi. Türk xaqanlığında isə əsasən çadırlar tikilirdi. Göytürklərin evlərinin çadırdan olmasının səbəbi olaraq bu xalqların köçəri həyat sürməsini göstərə bilərik. Xaqanın çadırı xüsusilə rəngarəng xalılarla bəzədilirdi.

Xəzər və Göytürk xaqanlığı türk dilli tayfalar idilər. Avar xaqanlığı fərqli olaraq qafqazdilli tayfalar olmuşdular. Göytürk xaqanlığının mədəniyyət nümunələri dedikdə ilk öncə "Orxon Yenisey" abidəsi göstərilməlidir. Bu abidə 158 ədəd kurqan və qaya daşlarından ibarətdir. Müəllimin şifahi nitqi ilə yanaşı, abidənin təsvirinin göstərilməsi bu abidənin digər mədəniyyət abidələri ilə müqayisəsini asan formaya gətirir. Göytürk xaqanlığında Orxon Yenisey abidəsində qədim türklərin əlifbası olan Türk "runik" yazısı haqqında məlumat verilir. Avarlar Göytürk xaqanlığında olduğu kimi "runik" yazısını bilirdilər.

Tarixi hadisələrin müqayisəsi əyani vasitələrlə aparıla bilər. Göytürk, Xəzər, Avar xalqlarının mədəniyyət nümunələrinə aid təsvirlər, şəkillər tətbiq edilir. Digər fənlər tarix fənni ilə müqayisə edildikdə, öyrənilən hadisələrin təhsilalanlar tərəfindən daha aydın dərk edilməsinə və tarixi hadisələrdə qədim zamanlardan indiyə qədər baş verən dəyişikliklərin səbəbini təhlil etmiş olurlar. Müqayisə edilən tarixi xalqların məişət və əşyalarının və istifadə etdikləri alətlərin müqayisə edilməsi, həmin obyektlərin canlı obrazını yaradır. Xəzərlərə məxsus silahlar, quş təsviri olan qablar tapılmışdır. Avar mədəniyyətini əks etdirən zənbil şəkilli iri sırğa, gümüş tökmə kəmər aşkar edilmişdir. Avarlar qızıl və gümüş qablardan istifadə edirdilər. Avarların böyük Çin sədlərinə bənzər divarları bu gündə heyranlıq doğurur. Belə olduqda eyni zamanda tələbələrin təsəvvüründə Çin sədləri də canlanır və özləri müqayisə aparırlar. Əyani şəkildə xaqanlıqlara məxsus məişət əşyalarının təsvirlərinin göstərilməsi, təhsilalanlarda həmin təsvirlərdə olan əşyalarda oxşar, fərqli cəhətləri müqayisə etmək bacarığı aşılayacaq.

Müqayisə üsulu olaraq sinxron cədvəli qeyd etmək olar. Tarix təlimində sinxron cədvəllərin tərtib edilməsi, hadisələrin zamanca tutuşdurulması və onları ardıcıllıqla müqayisə etmək bacarığı formalaşdırır. Göytürk, Xəzər, Avar xaqanlıqlarının tarixinin öyrənilməsində aşağı-

dakı məsələlər mühü yer tutur: 1) cəmiyyətin mədəniyyəti; 2) dini. Tələbələr bunları birləşdirərək həmin xaqanlıqların tarixinə dair sinxron cədvəl hazırlamış olurlar. Dərs zamanı adətən sinxroloji cədvəl şəkilində ümumiləşdirici sxem tələb olunur. Bu cədvəllərdə tarixi faktlar və hadisələr üfüqi və şaquli sıralarla düzülür ki, bu da şüurda məlum assosiasiyalar vasitəsi ilə vaxt əlaqələrinin möhkəmləndirilməsinə kömək edir (3, s. 66).

Din mövzusunda müqayisəli təhlilində, şagirdlər mövcud olan bütün dinləri xatırlamalı və qeyd etməlidirlər. Müqayisəli din dinlərin ümumi formalarını, növlərini, hadisələrin morfologiyasını, ümumbəşəri qayda və qanunlarını müəyyən etmək üçün onları öyrənən bir elmdir. Bu halda din mövzusunda suallar yaranır:

1) Tarixən mövcud olan xalqlarda ilk yaranan dinlər nə olmuşdur: Avar və Xəzərlərin ilk dini Şamançılıq olmuşdur. Göytürklər ən qədim zamanlardan günəş və oda inanırdılar.

2) Dini fərqlilik nədən ibarət idi: Göytürk xalqları oda və günəşə inancın nəticəsi olaraq islam dininə qədər evlərini üzü şərqə doğru tikirdilər. Xəzər xaqanlığında ibadət etmək üçün üstü açıq kilsələr inşa edilmişdir. Avarlar isə ölən adam üçün qazılan quyunu yandırırdılar və bununla onlar pis ruhları təmizləyirdilər. Bu xalqa görə öldükdən sonraki dünya bir neçə qatdan ibarətdir. Ən üst qatda müəyyən sınaqlardan çıxmış adamlar ola bilər.

3) Dini oxşarlıq nədən ibarət idi? Avarlarla Göytürklər ruhun ölməzliyinə inanırdılar və adam ölərkən onun yanına çoxlu qida, geyim, əşyaları, atını basdırırdılar. Göytürk xaqanlığında Avarlar Tenqriçilik dininə də sitayiş etmişlər. Bu isə onların xəzərlərlə oxşar cəhətlərinə aid edilə bilər.

Oxşar və fərqli cəhətlər müəyyən edildikdən sonra ümumiləşdirmə aparılır və nəticə olaraq şagirdlərin idrak fəallığı artır. Müqayisəli metod zaman daxilində, geniş dövrü əhatə edən problemlərin həlli zamanı effektli nəticə verir. Tarixin tədrisində müqayisəli təhlil üsulları imkan verir:

1) Tarixi proses haqqında daha aydın təsəvvür yaratmaq.
2) Fənn üzrə biliklərin sistemləşdirilməsi.
3) Fənnə olan marağın stimullaşdırılması.
4) Şagirdlərə müstəqil iş vərdişlərini aşılamaq.

Müqayisəli təhlil təhsil prosesinin subyektləri olan təhsilalanlarda təşkilatçılıq və ünsiyyət bacarıqlarının inkişafına və öyrənməyə yaradıcı yanaşmaya kömək edir. Burda vacib məqamlardan biri odur ki, bir çox təhsilalanlar müqayisəli təsviri necə verməyi bilmirlər. Əvvəlcə bir sahə, sonra digəri haqqında bildikləri hər şeyi danışmağa başlayırlar və hələ də müqayisəyə gələ bilmirlər. Müəllimin əsas vəzifəsi müqayisə metodunda istifadə qaydalarını təhsilalanlara öyrədilməsidir. Müqayisəli metodun ev tapşırıqlarının həllində mühüm rolu var. Bu metoddan istifadə etməyi bacaran şagird ev tapşırıqlarını daha maraqlı yerinə yetirə bilər.

Tarixi hadisələri, maddi-mədəniyyət nümunələrini, təsvirləri həm canlı sözlə, həm də əyani vasitələrlə paralel olaraq müqayisə edilə bilər. Xəzər, Avar, Göytürk xalqlarının mədəniyyəti ilə bağlı nümunələri müəllim eyni vaxtda həm canlı sözdən, həm də əyani vasitələrdən istifadə etməklə izah edə bilər. Müqayisə üsulu olaraq qrafiklərdən istifadə oluna bilər. Bu üsuldan tarixi zaman daxilində inkişaf meyillərinin göstərilməsi üçün istifadə olunur. Xəzər, Avar və Göytürk xaqanlıqlarında din mövzusunda tarixən dinin inkişafını və baş verən dəyişiklikləri bu üsul vasitəsilə müqayisə edilə bilər. Bu halda şagirdlərdə mövzu ilə bağlı daha aydın təsəvvürlər yaranır. Müqayisə həm adi, həm də elmi səviyyədə istənilən biliyin tərkib hissəsidir. Elmi ədəbiyyatdakı oxşar ideyaları tutuşdurmadan, fərqli müddəaları qarşılaşdırmadan yeni fikir demək, məntiqi mülahizə söyləmək və dəyərli mühakimə yürütmək olmaz (4, s. 400).

Tarixi-müqayisəli metodun məntiqi əsasını hadisə və proseslərin oxşarlıq prinsipini açıqla-

yan analogiya təşkil edir. Analogiya ümumelmi dərketmə metodu olub obyektlərin oxşar xüsusiyyətlərini əsas götürərək, onların digər obyektlərlə müqayisəli təhlili və bunun əsasında onların oxşarlığı haqqında nəticələrin əldə edilməsindən ibarətdir (5, s. 91). Müqayisə konkret faktlara əsaslanmalıdır. Tarixi dövrün inkişaf mərhələləri, oxşar cəhətləri və hadisələrin tipoloji mahiyyəti nəzərə alınmalıdır. Bu baxımdan Xəzər, Avar, Göytürk xaqanlıqlarının din və mədəniyyət mövzusunun müqayisəli təhlili, həmin xalqların tarixinə dair bir sıra mühüm və mürəkkəb problemlərin araşdırılmasına imkan yaradır. Müqayisəli metodu digər metodlarla əlaqəli şəkildə tətbiq etmək daha məqsədəuyğundur.

Analtik müqayisə apararkən, məntiq əsasında bir neçə tipologiyalar təklif olunur və ya müqayisə edilə bilən seçim obyektlərin asimmetrik müqayisəsi aparılır. Tədricən xüsusi terminologiya formalaşır (6, s. 222).

Müqayisə üsulu təhsilalanların idrak fəallığının inkişafını təmin edir və onları düşünməyə, mövzuya yaradıcı yanaşmaya kömək edir. Avar, Göytürk, Xəzər xaqanlıqlarının din və mədəniyyət mövzusunda müqayisəli təhlilinin üsul və yolları, həmin mövzunun qavranılmasında müstəsna əhəmiyyətə malikdir. Müqayisə metodu tarixin tədrisində mövzuların öyrənilməsini asan formaya gətirir və təlim prosesi maraqlı tədris edilir. Bu baxımdan müqayisə tarix təliminin əsasını təşkil edir.

**Məqalənin aktuallığı.** Məqalədə irəli sürülən müddəalar və əldə olunan nəticələr tarixin tədrisi metodikası elminin məzmununu daha da zənginləşdirə bilər.

**Məqalənin elmi yeniliyi.** Tarix təliminin tədrisi zamanı dərs prosesinin səmərəli olmasını təmin edən müqayisə metodunun mahiyyətinə aydınlıq gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. M. Əmirov. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlim metodikası. Bakı, 2011.
2. M. Əmirov. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri. Bakı, 2009.
3. F. Rüstəmov, Ş. Hüseynov. Pedaqogika. Bakı, 2006.
4. Ş. Məmmədova. Tarixin nəzəri problemləri. Mənbəşünaslığa giriş. Bakı, 2008.
5. М.М.Кром. Введение в историческую компаративистику. М., 2015.

**Э.Н. Фазиева**

## Методы и способы сравнительного анализа по теме «Культура и религиозные воззрения тюркских народов»

## Резюме

В статье рассказывается о том, как повысить познавательную активность, сделать процесс урока более интересным и рассмотрен метод сравнения, который лежит в основе его обучения. Каспий как предмет сравнения, Мы провели сравнительный анализ религии и культуры аварского, Гей тюркского каганатов. Форма сравнения в качестве диаграммы Венна мы применили таблицы синхронизации. Сравнение применимо при применении учителя мы отметили активность. Язык как предмет культуры у народов

Каспия, аварцев, Гей тюрков, бытового и были показаны различия и сходства их исторических памятников. Как выглядит метод сравнительного анализа в обучении истории рассматривается, какие знания, умения, привычки формируют и какие возможности создают.

**E.N. Faziyeva**

## Methods and ways of comparative analysis on the topic “Culture and religious views of the Turkic peoples”


## Summary

The article talks about how to increase cognitive activity, make the lesson process more interesting and considers the comparison method that underlies its learning. The Caspian Sea as a subject of comparison. We conducted a comparative analysis of the religion and culture of the Avar, Gay Turkic Khaganates. Comparison form as a Venn diagram, we have applied synchronization tables. The comparison is applicable when applying the teacher, we noted the activity. The language as a subject of culture among the peoples of the Caspian Sea, the Avars, the Gay Turks, everyday life, and the differences and similarities of their historical monuments were shown. What the method of comparative analysis looks like in teaching history is considered, what knowledge, skills, habits are formed and what opportunities are created.


**Redaksiyaya daxil olub:** 27.04.2022